2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 yanvar 2020-ci il tarixli 53 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 04 yanvar 2020-ci il

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsindən Təklə bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Kərimov Salman Kərim oğlu və İbrahimli Yusif Elyaz oğlu 2 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) ərizə ilə müraciət edərək həmin seçki dairəsinin 23, 24, 25 və 26 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının araşdırılması barədə dairə seçki komissiyasının qəbul etdiyi 33/187 saylı 29 dekabr 2019-cu il tarixli qərarını mübahisələndirmiş, həmin seçki məntəqələri üzrə seçkinin nəticələrinin ləğv olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Namizədlər öz müraciətində göstərmişlər ki, yuxarıda göstərilən seçki məntəqələrində səsvermədə iştirak edən seçicilərin sayının az olmasına baxmayaraq, məntəqə seçki komissiyaları tərəfindən bu say süni şəkildə artırılmış, qanunsuz olaraq komissiya üzvlərinə yaxın namizədlər bələdiyyə üzvləri seçilmişdilər.

Eyni zamanda ərizəçilər səs yazısı təqdim edərək bildirmişlər ki, izahatları alınmış şəxslərlə telefon bağlantısı zamanı sonuncular əvvəl verdikləri izahatları güya təsdiq etməmişlər.

Araşdırma prosesində müraciət etmiş qeydə alınmış namizədlər S.K.Kərimov və Y.E.İbrahimli ilə əlaqə saxlanılmış, onlara hər hansı sənəd və materiallar təqdim etmək, araşdırma və iclasda iştirak etmək və digər hüquqlarının olması izah edilmiş, onlara iclasın vaxtı barədə məlumat verilmişdir.

Həmçinin, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, 23, 24, 25 və 26 saylı seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddia olunanlar öz təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin müəyyənləşdirilməsi zamanı 23, 24, 25 və 26 saylı seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları olmadığından qeydə alınmış namizədlər S.K.Kərimovin və Y.E.İbrahimlinin müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsinin 23, 24, 25 və 26 saylı seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Belə ki, səsvermə günü baş verməsi iddia edilən hər hansı bir qanun pozuntuları öz təsdiqini tapmamış və bu hal səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər E.Ə.Mirzəyevin, C.M.Tahirovun, S.B.Əliyevin, E.S.Bəşirovun, Y.E.Ağayevin, Ş.E.Ağayevin həmçinin bələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər Ə.N.Fətullayevin, Y.Ş.İsmayılovun, Z.S.Quliyevin E.A.Musayevin 23 saylı məntəqə seçki komissiyasının sədri Ə.B.Əliyevin, komissiyanın katibi Ə.M.Hadıyevin, üzvləri F.B.Kəlbiyevanın, S.S. Əliyevin, 24 saylı məntəqə seçki komissiyasının sədri Ə.A.Bəhənovun, komissiyanın katibləri N.S.Qurbanovun, G.N.Əliyevin, üzvləri Ş.C.Məmmədovun, 25 saylı məntəqə seçki komissiyasının sədri R.Ə.Fətullayevin, komissiyanın katibi F.A.Məmmədovun, üzvləri R.R.Talıbovun, 26 saylı məntəqə seçki komissiyasının sədri İ.İ.Quliyevin, komissiyanın katibləri C.İ.Şükürovun R.M.Məmmədovun, üzvləri S.T.İbrahimovun, A.V.Abbasovun izahatları ilə təsdiq olunur. Həmçinin, verilmiş izahatlardan və əlavə edilmiş sənədlərdən görünür ki, ərizəçilər S.K.Kərimov və Y.E.İbrahimli səsvermə günü adı çəkilən seçki məntəqələrində 5-10 dəqidə olmaqla müşahidə aparmış və sonra həmin məntəqələri tərk etmişlər. Araşdırma ilə müəyyən edilmişdir ki, Seçki Məcəlləsinin 40-43-cü maddələrinə uyğun olaraq həmin namizədlərin maraqlarını təmsil edən heç bir seçki subyektləri seçki məntəqələrində müşahidə aparmaq üçün qeydiyyatdan keçməmiş və müşahidə aparmamışlar.

Müraciətə əlavə olunmuş səs yazısında mübahisələndirilən izahatların həmin şəxslər tərəfindən seçki qanunvericiliyinə uyğun verilməməsi barədə məlumatı da öz təsdiqini tapmamışdır.

Araşdırma zamanı məlum olmuşdur ki, 25 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının sədri E.Ə.Bəşirzadə və 26 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının katibi İ.Ş.Nuriyev Seçki Məcəlləsinin 22.1-ci maddəsinin tələblərinə uyğun olaraq bələdiyyə seçkilərinin nəticələri elan olunanadək məntəqə seçki komissiyasının işindən müvəqqəti uzaqlaşdırılmışdır.

Araşdırma nəticəsində şikayətin təmin edilməsi üçün hüquqi əsaslar müəyyən olunmamışdır və 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi dairə seçki komissiyasının 29 dekabr 2019-cu il tarixli 33/187 saylı qərarı seçki qanunvericiliyinin tələblərinə uyğun qəbul edilmişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş məlumatlara əsasən şikayət əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsindən Təklə bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Kərimov Salman Kərim oğlunun və İbrahimli Yusif Elyaz oğlunun 2 yanvar 2020-ci il tarixli 53 saylı müraciəti

əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 29 dekabr 2019-cu il tarixli 33/187 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova